**Ə.T.ABDULLAYEV**
*e-mail: alia18113@student.edu.az*
**:https://orcid.org/0009-0007-1895-3300**

**Gəncə Dövlət Universiteti**
(Gəncə şəh., Heydər Əliyev pr., 429)



**10.62021/0026-0028.2024.4.198**


# PEDAQOJİ NƏZƏRİYYƏDƏ VƏTƏNPƏRVƏRLİK MƏDƏNİYYƏTİ MƏFHUMUNA MÜXTƏLİF YANAŞMALAR


***Xülasə.*** *Məqalədə müəyyənləşdirilir ki, vətənpərvərlik mədəniyyəti şəxsin vətənpərvərlik şüurunun inkişafının ən yüksək, inteqrasiya olunmuş səviyyəsi kimi fəalliyyət və hərəkətlərdə təzahür olunur. Vətənpərvərlik mədəniyyəti onun strukturunu əmələ gətirən: koqnitiv, dəyər, davranış kimi üç komponentdən ibarətdir. Bu komponentlər bilik, motiv, istək, iradə, davranış və fəaliyyət, hətta emosiyaları özündə birləşdirir ki, onlar da vətənpərvərlik mədəniyyətinin bütün tərkib hissələrinin fundametını təşkil edir. Sözsüz ki, vətənpərvərliyə həm də emosional komponent xasdır. Emosiyalar – insanın ən ali hissləridir, bununla yanaşı, bəzi hisslər sosial rəng daşıyır.*
*Məqalədə əsaslandırılan ideyalar həm praktik müəllimlər, həm də tədqiqatçılar üçün maraqlı ola bilər.*



***Açar sözlər:*** *pedaqoji nəzəriyyə, vətənpərvərlik mədəniyyəti, sosial cəmiyyət, fərdin vətənpərvərlik fəaliyyəti, vətənpərvərlik ruhu, intellektual komponent*


Tədqiqat göstərdi ki, pedaqoji nəzəriyyədə vətənpərvərlik mədəniyyəti məfhumuna müxtəlif yanaşmalar mövcuddur. M.A.Ariarski "Vətənpərvərlik mədəniyyəti" anlayışını şərh edərkən qeyd edir ki, bu anlayış onu təşkil edən iki komponentdən ibarət olduğu üçün, onu müəyyən edərkən "vətənpərvər" termininin mənası ilə yanaşı, "reallığı və özünüdəyişdirməyin bir yolu; sosial cəmiyyətdə insanın öz təhsil-tərbiyəsinə müvafiq davranışı; müəyyən bilik və bacarıqların mənimsənilməsi; cəmiyyətin mənəvi həyat sahəsi; cəmiyyətin tarixi inkişaf səviyyəsini müəyyən edən maddi və mənəvi dəyərlər coxluğu"nu özündə birləşdirən "mədəniyyət" termininin mənasının müəyyən edilməsi də vacibdir [2, s. 263].

"Rusiya pedaqoji ensiklopediyası" mədəniyyəti "insanın yaradıcılıq bacarıq və qabiliyyətlərinin, cəmiyyətin inkişaf səviyyəsi" kimi [5, s. 486] müəyyən edir ki, bu da özünü fərdin həyat fəaliyyətinin inkişaf formalarında, insanlar arasında münasibətlərdə, habelə onların əmək məhsullarında: yaradılmış həm maddi, həm də mənəvi dəyərlərdə təzahür etdirir. Biliklər və dəyərlər – mənəvi mədəniyyətə; sosial dəyərlər (ideallar) və davranış qaydaları – sosial mədəniyyətə; bilik və normativlər isə texnoloji mədəniyyətə aiddir. Beləliklə, bütün mədəniyyət formaları (o cümlədən də vətənpərvərlik), özündə bilik, dəyər və texnoloji komponentləri birləşdirir. Onu da qeyd etmək vacibdir ki, istənilən forma fəaliyyət zamanı formalaşır və fəaliyyətdə özünü təzahür etdirir.

Vətənpərvərlik mədəniyyətinin strukturunu nəzərdən keçirərkən qeyd etmək vacibdir ki, onun əsas mahiyyətini fərdin vətənpərvərlik fəaliyyətində bilavasitə iştirakı təşkil edir. Vətənpərvərlik mədəniyyətinin əsas cəhətlərini müəyyən edərkən, V.A.Ruja aşağıdakılar üzərində dayanır: "nəsillərarası varislik, tarixi yaddaşın əlaqəsinə və sosial innovasiyalara istiqamətlənmək, ali cəmiyyətin bütövlüyü" [6].

Vətənpərvərlik mədəniyyətinin nüvəsinə vətənpərvəryönümlü biliklər, dəyərlər, normalar aiddir ki, onlar da öz növbəsində davranış qaydalarını müəyyən edərək, fərdin fəaliyyət zamanı özünü təzahür etməsinə kömək edir. Ona görə də mədəniyyətin formalaşdırılmasının özülü kimi bu strukturun yaradılması uşaqlıq dövründən başladığı üçün, vətənpərvərlik mədəniyyətinin əsasını muzey vasitələrinin köməyi ilə formalaşdırmaq məqsədi təhsil prosesinin bütün cəhətlərini müəyyən etməli, onun strukturunu qidalandırmalı, məktəblilərin tədris və məktəbdənkənar fəaliyyətlərini birləşdirməlidir.

Beləliklə, vətənpərvərlik mədəniyyəti şəxsin vətənpərvərlik şüurunun inkişafının ən yüksək, inteqrasiya olunmuş səviyyəsi kimi fəalliyyət və hərəkətlərdə təzahür olunur. Vətənpərvərlik mədəniyyəti onun strukturunu əmələ gətirən: koqnitiv, dəyər, davranış kimi üç komponentdən ibarətdir. Bu komponentlər bilik, motiv, istək, iradə, davranış və fəaliyyət, hətta emosiyaları özündə birləşdirir ki, onlar da vətənpərvərlik mədəniyyətinin bütün tərkib hissələrinin fundametini təşkil edir. O zaman, bir qədər irəli gedib, vətənpərvərlik mədəniyyətinin əsaslarının formalaşdırılması adı altında uşağın öz yaşına uyğun vətənpərvərlik mədəniyyəti səviyyəsinin (bacarıq və qabiliyyətlər) mənimsənilməsi prosesini başa düşəcəyik.

İnsanın ümumi mədəniyyətinin komponenti kimi vətənpərvərlik mədəniyyəti onun milli özünüdərk və dövlətin çoxəsrlik tarixinə mənsubluq hissini üzə çıxarır. İ.M.Savelyeva özünün monoqrafiyasında qeyd edir ki, "vətənpərvərlik mədəniyyəti" hər şeyi əhatə edən tarixi şüurdan fərqli olaraq keçmiş haqqında institusional və refleksiv, şüurlu şəkildə idarəolunan ("kultivasiya" olunan) aspektini vurğulayır.

Kiçikyaşlı məktəblilərdə vətənpərvərlik hissinin tərbiyəsi doğma vətənin tarixinə hörmət, xalqlar arasında qarşılıqlı anlaşma və qarşılıqlı hörmət, məktəblilərin müasir dövrün kəskin problemlərinin həllinə töhfə verməsinə səy göstərmək bacarıqlarının inkişaf etdirilməsi yolu ilə həyata kecirilir.

Q.K.Selevkonun fikrincə, vətənpərvərlik mədəniyyətinin əsaslarının formalaşmasının başlıca istiqamətləri aşağıdakılardan ibarətdir: mənəvi-əxlaqi, tarixi-ölkəşünaslıq, hərbi-vətənpərvərlik, mədəni vətənpərvərlik [7, s.106-107].

N.D.Nikandrov qeyd edir ki, vətənpərvərlik mədəniyyətinin mənəvi-əxlaqi istiqaməti "əsas milli dəyərlərimiz baxımından şəxsin mənəvi aləminin strukturunda vətənpərvərlik dəyərlərinin sabitliyi və universallığını, ali dəyərləri, idealları və məqsədin şagirdlərin dərk etməsini, əldə olumuş informasiyanın tənqidi dərketmək bacarığını, tarixi hadisələrin mahiyyətinin düzgün qiymətləndirilməsini, real həyatın sosial əhəmiyyətli proses və hadisələrini ayırd etmək bacarığını" özündə birləşdirir" [4, s.3-8].

R.Geranın fikrincə, vətənpərvərlik tərbiyəsinin tarixi-ölkəşünaslıq istiqaməti tarixi keçmişimizin öyrənilməsinə istiqamətlənmiş tarixi-mədəni köklərin məktəblilərin mənimsəməsinə, dünyagörüşünün inkişaf etdirilməsi əsasında dəyərlərin dərk olunmasına, tarixi hadisələri dəyərləndirmək bacarıqlarının inkişafına yönəlmiş kompleks tədbirlərə əsaslanır [3, s.6-8]. Öz ölkəsinin milli dəyərlərini tanımaq, milli qəhrəmanları yadda saxlamaq, vətən tarixində baş vermiş: inqilabi, hərbi, dinc hadisələri bilmək – bütün bunlar vətənpərvərlik tərbiyəsinin vəzifələrinin ifadə olunmasında həlledici rol oynayır. A.N.Abbasov və H.Ə.Əlizadənin fikrincə, muzey dərslərində şagirdlərdə əvvəlki nəsillərin əldə etdikləri nailiyyətlərlə bağlı qürur hissi yaratmaq, bununla yanaşı, Azərbaycan xalqının dünya elmi və mədəniyyətinə verdiyi töhfəni rəngarəngliyi ilə üzə çıxarmaq, dövlətimizin yaranmasında çətin bir yol keçdiyini təsvir etmək, Azərbaycan tarixində böhranlı dövrlərin səbəblərini və onların aradan qaldırılması yolla-

rı haqqında şagirdlərlə fikir mübadiləsi aparmaq, vətənpərvərlik nöqteyi-nəzərdən təkcə keçmişin deyil, müasir dövrün siyasətçilərinin fəaliyyətini də qiymətləndirmək vacibdir [1, s. 39-43]. Belə istiqamət kiçikyaşlı məktəblilərdə Vətənin qüdrəti ilə fəxr etmək hissini formalaşdırır, Vətən sevgisi, şərəf, vəzifə kimi təsəvvürə uyğun davranış nümunələrini onlara mənimsətmək imkanı verir. Nəticədə səxsiyyətin keyfiyyətlərindən, özünütərbiyənin vətənpərvərlik hissindən ibarət möhkəm mexanizmi yaranır və şəxsin vətənpərvərlik tərbiyəsi prosesinin möhkəmləndirilməsi, vətənpərvərlik mədəniyyətinin əsaslarının formalaşdırılması baş verir.

Vətənpərvərlik mədəniyyətinin hərbi-vətənpərvərlik istiqaməti isə tarixi-vətənpərvərlik şüurunun Vətənin hərb tarixi və hərbi ənənələrinə davamlı maraq ilə Vətənə xidmət ideyasının birləşdirilməsinə yönəlmişdir.

Vətənpərvərlik mədəniyyətinin mədəni-vətənpərvərlik istiqaməti şifahi xalq yaradıcılığı və Azərbaycan folklorunun köməyi ilə məktəblilərdə kreativliyin inkişaf etdirilməsi, habelə xalqın adət-ənənələri ilə tanış edilməsi yolu ilə Azərbaycan-türk mədəniyyətinin çoxşaxəli olduğunu onlara dərk etdirməyi özündə əks etdirir.

Vətənpərvərlik mədəniyyətinin təhlilində vətənpərvərliyin komponentləri də vacib əhəmiyyət kəsb edir.

Vətənpərvərliyin motivasiyaverici komponenti. Əsas motivlərə kiçikyaşlı məktəblilərin idealları, maraq, əyləncə və dəyərləri aiddir. Motivasiyanın mühüm amilinə əldə olunacaq müəyyən nailiyyətlər aid edilir. Əsas metodlara isə uğur əldə ediləcək mühit, inam, pedaqoji tələb, göstəriş, rəğbətləndirmə, qarşılıqlı yardım aiddir. Kiçikyaşlı məktəbli prosesin bərabərhüquqlu və fəal iştirakçısına çevrilməlidir, yəni onlardan istifadə zamanı şəxsən özü iştirak etməlidir. Proses zamanı elə şərait yaratmaq lazımdır ki, kiçikyaşlı məktəbli qrupda öz vəzifə və hərəkətlərinə görə məsuliyyəti dərk edə bilsin, Vətəninə sevgi, qürür hissi, onun tarixinə heyranlıq hissi nümayiş etdirsin.

Vətənpərvərliyin intellektual komponenti (yaxud koqnitiv komponent). Bu komponentin əsas bazasını şagirdlərin mənimsədikləri biliklər təşkil edir. Şagirdlər biliklərlə yanaşı, eyni zamanda bu biliyi ona uyğun gələn dəyərlər sistemi ilə əlaqələndirməyi və əlavə olaraq, öz vətənpərvərlik keyfiyyətini təkmilləşdirmək yollarını görməyi də bacarmalıdırlar.

Vətənpərvərliyin formalaşdırılmasında intellektual komponentin təmin edilməsi üçün muzey proqramına aşağıdakıların daxil edilməsi vacibdir:

1. Dövlət simvolu barədə informasiyaların öyrənilməsi (Azərbaycan Respublikasının himnini, onun bayrağını, gerbini, həm də digər dövlət simvollarımızı və tarixi müqəddəs yerlərimizi bilməsi).
2. Ölkəmizin tarixi və mədəni keçmişi ilə bağlı müxtəlif təbiətli istiqamətlərin və onlara xas olan xalq ənənələrinin öyrənilməsi.
3. Azərbaycan Respublikasının ekoloji, mədəni, sosial-iqtisadi, hüquqi və digər problemlərinin öyrənilməsi.

Müşahidələrimizdən aydın göründü ki, tədqiqat işimiz, əldə etdiyimiz elmi nailiyyətlər tarixi-vətənpərvərlik informasiyalar ilə tanışlıq zamanı kiçikyaşlı məktəblilərin yaradıcılıq və ictimai fəaliyyətlərinin inkişafına köməklik edir. Bu növ fəaliyyət məktəblilərin idrak maraqları və qabiliyyətlərini inkişaf etdirir, onların baxışlarını genişləndirir, axtarış-tədqiqatçılıq işləri sahəsində təcrübələrə yiyələnmək üçün baza rolunu oynayır, kiçikyaşlı məktəblilərdə konkret vətənpərvərlik əlamətlərini və digər şəxsi keyfiyyətləri formalaşdırır. Təlim-tərbiyədə fəal həyat mövqeyinə və müstəqil işə köməklik kiçikyaşlı məktəblilərin vətənpərvərlik tərbiyəsi prosesinin müsbət nəticələrini müəyyən edir.

Sözsüz ki, vətənpərvərliyə həm də emosional komponent də xasdır. Emosiyalar – insanın ən ali hissləridir, bununla yanaşı, bəzi hisslər sosial rəng daşıyır. Bu, həm də vətənpərvərlik, Vətən qarşısında borc hissinə, kollektivçilik, beynəlmiləlçilik hissinə, şərəf hisssinə aiddir. Emosional komponentləri fəallaşdırmaq üçün muzeydə uşağın fəaliyyətini vətənpərvərlik tə-

zahürünün parlaq nümunələri ilə dolğunlaşdırmaq, həm də eyni zamanda yaradıcılıq axtarışı və müstəqil işləri özündə birləşdirən situasiyalar yaratmaqla kifayətlənməmək, bu situasiyalara vətənpərvərlik çaları qataraq nəticədə uşaqlarda tarixi-vətənpərvərlik mövqeyini formalaşdırmaq vacibdir.

***İşin elmi nəticəsi.*** Tarixi-ədəbi muzeylər vasitəsilə kiçik məktəbyaşlı uşaqlarda vətənpərvərlik tərbiyəsinin əsaslarını formalaşdırmaq olar.

***İşin elmi yeniliyi.*** Tarix-ədəbi muzeylərin nümunəsində kiçik məktəbyaşlı uşaqlarda vətənpərvərlik mədəniyyətinin əsas xüsusiyyətlərinin formalaşdırılmasının pedaqoji şərtləri üzə çıxarılmış və əsaslandırılmışdır.

***İşin tətbiqi əhəmiyyəti***. Tədqiqat materiallarından həm praktik ibtidai sinif müəllimləri, həm də dərslik müəllifləri faydalana bilər.

## Ədəbiyyat


1. Abbasov, A.N., Əlizadə, H.Ə. Pedaqogika / A.N.Abbasov, H.Ə.Əlizadə. – Bakı: Mütərcim, – 2024. – 400 s.
2. Ариарский, М.А. Социально-культурная деятельность как предмет научного осмысления / Ариарский М.А. – СПб.: Арт-студия «Концерт», – 2008. – 792 с.
3. Гера, Р. Воспитание патриотизма средствами краеведения / Р.М.Гера // Воспитание школьников. – 2015. – № 10. – с.6-8.
4. Никандров, Н.Д. Духовные ценности и воспитание человека / Н.Д. Никандров // Педагогика. – 2018. – № 4. – с.3-8.
5. Российская педагогическая энциклопедия. В 2т. Том 1. / гл. ред. В.В. Давыдов. – Москва: Большая Российская энциклопедия, –2003. – 1450 с.
6. Ружа, В.А. Патриотическая культура и ее изменения [Электронный ресурс] // Современные исследования социальных проблем (электронный научный журнал), №6(14), –2012. – Режим доступа: http://sisp.nkras.ru/e-ru/issues/2012/6/ruzha.pdf.
7. Селевко Г.К. Современные образовательные технологии: Учебное пособие. – М., –2008. – с. 106-107.


**A.T.Abdullaev**

## Various Approaches to the Concept of Patriotic Culture in Pedagogical Theory

***Summary***

The article defines that patriotic culture manifests itself in activities and actions as the highest, integrated level of development of patriotic consciousness of a person. Patriotic culture consists of three components that form its structure: cognitive, value, behavioral. These components combine knowledge, motive, desires, will, behavior and actions, even emotions, which form the basis of all components of patriotic culture. Undoubtedly, patriotism also has an emotional component. Emotions are the highest human feelings, along with this, some feelings have a social coloring.

The ideas presented in the article may be of interest to both practicing teachers and researchers.

***Key words:*** *pedagogical theory, patriotic culture, social society, patriotic activity of the individual, patriotic spirit, intellectual component*

**А.Т.Абдуллаев**

## Разные подходы к понятию “патриотическая культура” в педагогической теории

***Резюме***

В статье определено, что патриотическая культура проявляется в деятельности и действиях как высший, интегрированный уровень развития патриотического сознания человека. Патриотическая культура состоит из трех компонентов, образующих ее структуру: когнитивного, ценностного, поведенческого. Эти компоненты объединяют в себе знания, мотив, желания,

волю, поведение и действия, даже эмоции, составляющие основу всех компонентов патриотической культуры. Несомненно, патриотизму свойственно также и эмоциональный компонент. Эмоции являются высшими человеческими чувствами, наряду с этим некоторые чувства имеют социальную окраску.

Идеи, изложенные в статье, могут быть интересны как практикующим преподавателям, так и исследователям.

***Ключевые слова:*** *педагогическая теория, патриотическая культура, социальное общество, патриотическая активность личности, патриотический дух, интеллектуальный компонент*

*Rəyçi: ped.e.d., prof. Ş.Tağıyev*

*Redaksiyaya daxil olub: 17.11.2024*